Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Şuşada mənəvi tarixi dəyərlərimizin bərpası - dövlət və ictimai maraqlar burada da birləşdi...

**Mədəniyyətimizin və mənəviyyatımızın əbədi şəhəri Şuşada həyat yenidən canlanıb. Tariximizin ən gözəl çağlarına şahidlik edən Şuşa çox unikal şəhərdir və milli ruhumuzun daşıyıcısıdır. Bu şəhərdə hər ev, hər küçə, hər bulaq, hər abidə bir tarixdir, hər birinin öz hekayəti, hər birinin öz özəlliyi var. 17 məhəlləli Şuşada elə böyük şəxsiyyətlər, elm, sənət xadimləri yaşayıb yaradıb ki, onların hər biri xalqımızın mənəviyyat tarixinin ucalığında dayanır.**




Şuşa işğaldan azad ediləndə yarımcan idi, çünki düşmən müqəddəs şəhərimizi dəyişmək, bizə yadlaşdırmaq istəyirdi, amma buna müəssər ola bilmədi. Bu gün isə Şuşa cana - qana gəlib, öz əzəli simasını qaytarıb. Şuşada tarixi şəxsiyyətlərə aid olan malikanələr, evlər bərpa edilib, o evlər xalqımızın həyatında mühüm rol oynayan insanların ruhunun dolaşdığı məkanlardır. Şuşa həyata keçirilən bərpa işləri dövlət və ictimai maraqlarını tamamilə ifadə edə bilir. Təbii, ictimaiyyət bu hadisələri çox müsbət qarşılayır. Mehmandarovların malikanəsinin bərpası, Bülbülün ev muzeyinə yenidən həyat verilməsi və daha başqa-başqa hadisələr cəmiyyət tərəfindən xoş qarşılanır və insanlarımız bunu dövlətin mənəviyyat tariximizə sahib çıxması faktlarından biri olaraq qarşılayır.

### "Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir"

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, beynəlxalq münasibətlər üzrə professor, siyasi elmlər doktoru Elçin Əhmədov "Şuşa Azərbaycanın şəhərsalma mədəniyyətinin parlaq incisi kimi bərpa edilir - Mehmandarovların malikanə kompleksi" sərlövhəli məqaləsində "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı Sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir.

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirmişdir. Bu baxımdan Şuşa işğaldan azad edildikdən sonra şəhərin bərpası istiqamətində işlərə başlanıldı.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə, xüsusilə Şuşada 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlamışdır. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi fəal dəstəyini göstərir. Aparılan genişmiqyaslı işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub.

Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Heydər Əliyev Fondu artıq Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərinin, Milli Xalça Muzeyinin Şuşa filialının, Yaradıcılıq Mərkəzinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin bərpa olunan məzarı və digərləri daxildir.

Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir. 2023-cü il mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak etdilər" deyə qeyd edir.

### Dövlət və ictimai maraqların çuğlaşdığı şəhər...

Ekspertlər qeyd edir ki, Şuşada Mehmandarovların malikanəsinin, Bülbülün ev muzeyinin bərpası, habelə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər Ağa, Saatlı məscidlərinin, Milli Xalça Muzeyinin Şuşa filialının, Yaradıcılıq Mərkəzinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin məzarının bərpa olunması dövlətin öz xalqının mədəniyyətinə verdiyi dəyərin nümunəsidir. 2021-ci ilin avqust ayında Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün avqustun 29-da Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı oldu. Mayın 10-da isə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışında iştirak etdilər. Şuşada həyata keçirilən bütün bu işlər dövlət və ictimai maraqların təcahürüdür. Xalqımız 30 il Şuşanın həsrəti ilə yaşamışdı və Şuşanın azad edilməsi bu həsrətə son qoydu. Şuşanın bərpası isə insanlarımızın arzularını ifadə edir.

Mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən hər bir iş ictimaiyyətin məmnunluqla qarşıladığı hadisə kimi günümüzə daxil olur.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**